# HEYDƏR ƏLİYEV VƏ TƏHSİL SİYASƏTİ

**İ.İ. Nağıyeva**
Şəmkir rayonu Düyərli kənd 1saylı orta məktəbin müəllimi,
əməkdar müəllim.

Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü il Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar "Heydər Əliyev ili" adlandırılmışdır. Bu il çərçivəsində mənim qeydlərim.

Ulu öndər Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi zamanlarda reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq və bu strateji əhəmiyyətli sahənin dünəninə və bu gününə diqqət yetirmək lazımdır. Ulu öndər təhsil sahəsinə xüsusi həssaslıqla yanaşmış və bu sahəyə daim qayğı göstərmişdir. Biz bu gün gündəlik həyat fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayırıq. Azərbaycan tarixinin taleyüklü məqamları, dövlətçilik uğrunda gedən mübarizələr və s. bütöv bir mərhələni əhatə edir. Milli intibahın təminatında başlıca vəzifə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya edən təhsilimiz, Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra daha sürətli inkişafı ilə fərqləndi. Bir fakt aydındır ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti real həyatda özünün müsbət təzahürünü göstərmişdir. Ulu Öndər çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu vurğulayaraq demişdir: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir". Heydər Əliyev bu məsələni daim diqqət mərkəzində saxlamış, təhsil sistemində ciddi islahatlar həyata keçirmişdir. Məhz 1978-ci ildən etibarən

şagirdlərin pulsuz dərsliklərlə təminatı da həmin islahatların nəticəsidir.

Orta məktəblərin tikintisinin genişləndirilməsi, ali təhsil müəssisələrinin açılması, təhsil alanların sayının artması və s. islahatlarla əlaqədardır. Ulu Öndər Azərbaycana ilk rəhbərlik etdiyi illərdən başlayaraq Azərbaycanda yeni-yeni Universitetlərin yaradılmasının təşəbbüskarı və memarı olmuşdur. SSRİ-nin 4 respublikasında yaradılan Texnologiya Universitetinin birinin Gəncə şəhərində yerləşdirilməsinin də təşəbbüskarı Heydər Əliyev olmuşdur.

Ulu Öndər gənclərin xarici ölkələrdə təhsil almalarına böyük önəm vermişdir. Azərbaycanlı gənclərin Moskvanın müxtəlif nüfuzlu Universitetlərində təhsil almalarına xüsusi köməklik göstərmişdir, onların təhsili ilə daim maraqlanmışdır. Qafqazda yaradılan ən böyük Universitetlərdən olan Bakı Dövlət Universitetini Ulu Öndər Azərbaycanın ali təhsilin bayraqdarı, Azərbaycan xalqının milli sərvəti, milli iftixarı adlandırmışdır.

Azərbaycan Respublikasında yeni müəssisələrinin yaradılması, əsaslı təmiri və avadanlıqlarla təchiz olunmasına dair proqramların qəbul edilməsi də Ulu Öndərin müstəsna əhəmiyyətə malik qərarlarındandır. Təhsil islahatlarının aparılmasını zəruri hesab edən Heydər Əliyev deyirdi: “Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir.” Bu fikirlər Ulu Öndərin təhsil strategiyasının nə qədər əhəmiyyətli olmasını bir daha təsdiqləyir. İslahatların aparıldığı dövrdə, Azərbaycan təsili tarixində ilk dəfə olaraq Ümumi təhsilin Dövlət standartlarının və Bazis Tədris Planının hazırlanması 1999-cu il aprel ayında Respublika hökuməti tərəfindən təsdiq olunmuşdur. Heydər Əliyevin milli tərəqqinin, elmin, mədəniyyətin və mənəviyyatın inkişafında, təhsilə, müəllim-

lərə qayğısından, təhsil sisteminin inkişaf yollarındakı xidmətlərindən saatlarla, günlərlə danışsaq onun fəaliyyətini tam əhatə edə bilmərik.

Məndə bu dahi siyahətçini yaxından görmüş bir ziyalı daim xatırlayıram. 1978-ci ilin avqust ayının axırı idi.İndiki Azadlıq meydanında birinci kurs tələbərinin andiçmə toplantısı keçirilirdi. Meydanda insan seli dəniz kimi dalğalanırdı. Elə oldu ki, indiki pedaqoji universitetin ən çox tələbəsi olan coğrafiya-biologiya fakultəsinin tələbələri adından çıxış etmək mənə qismət oldu. Tədbirdən əvvəl o dövrdə fakültənin dekan müavini Oktay Rza məndən neçə çıxış edəcəyimi soruşdu və dedi: “qızım bu tədbir rayon, məktəb tədbiri deyil, çıxışını yaz əlində olsun amma həyacanlanma.Burada respublikanın vəzifəli şəxsləri, Azərbaycan Respublikası Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev olacaqdır”. Həmin çıxış 1978-ci il 8 sentyabrda “Gənc müəllim” qəzetində nəşr olundu, bu günə qədərdə arxivimdə saxlayıram. 1980-1981-ci illərdə tələbələri müxtəlif rayonlara pambıq yığmağa aparırdılar. Pambıq yığımından qayıtdıqdan sonra fərqlənən, fəal tələbələrin Flarmoniyada Ulu Öndərlə görüşü keçirildi.Heydər Əliyevin bütün sahələri əhatə edən dərin məzmunlu çıxışı mənim həyatımda gələcək yolumu müəyyənləşdirdi.

Ulu Öndər Heydər Əliyevin elm və təhsil siyasətinin idarə edilməsinə hazırda yeni yanaşma Respublikamızın Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılır. Son illər 3500-dən artıq məktəb tikilib və əsaslı təmir olunub, müxtəlif lazımı avadanlıqlarla təchiz edilmişdir. Yeri gəlmişkən qeyd edim ki, mənim hazırda çalışdığım Şəmkir rayonu Düyərli kənd 1 saylı orta məktəb Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə tikilmişdir. 3 mərtəbə və 53 otaqdan ibarət orta məktəb yenidən təmir olunmuşdur. Məktəbdə lazımı

avadanlıqlarla təchiz olunmuş idman zalı, kompüterlə təmin olunmuş 2 informatika kabineti, az yaşlı (3-5) uşaqlar üçün 2 otaq, peşə təhsili ilə əlaqədaq 2 təcrübə otaqları, fizika, kimya labaratoriyaları hər cür lazımı avadanlıqlarla təmin olunmuşdur.

İlham Əliyev demişdir: “Biz çalışmalıyıq ki, dünyada mövcud olan ən qabaqcıl təcrübəni Azərbaycanda tətbiq edək. Elə etməliyik ki, təhsil sahəsində bütün problemlər həllini tapsın. Təhsilə ayrılan xərclər ildən-ilə artır. Mən çox istəyirəm ki, bütün ali məktəblərdə gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar”.

Təhsilə qayğının yüksək olduğu bu dövrdə mən Şəmkir rayonunda təhsilin inkişafından bir neçə faktı qeyd etmək istəyirəm. İlk dəfə olaraq iki şagird Qapanlı kənd tam orta məktəbin 10-cu sinif şagirdi Rəsul Hüseynov və Kimya-biologiya təmayüllü litseyin 9-cu sinif şagirdi Fidan Cəfərova Beynəlxalq müsabiqələrdə iştirak etmişlər. Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 7-ci Avropa Coğrafiya Olimpiadasının Azərbaycan komandasının üzvü olaraq Rəsul Hüseynov qızıl medala layiq görülmüşdür. Şəmkir rayonu üzrə 2022-ci ildə 6, 2023- cü ildə 5 şagird Respublika olimpiadasının gümüş və bürünc medallarını almışlar. Kimya-biologiya litseyinin 9-cu sinif şagirdi Nurcan Abuzərova “TEKNOFEST Azərbaycan” Aerokosmik vəTexnologiya Festifalında müsabiqənin qalibi olmuş, qızıl medala layiq görülmüşdür. STEAM Azərbaycan müsabiqəsində rayonyn müxtəlif məktəblərindən olan şagirdlərlər final turunda iştirak etmək hüququ qazanmışlar. Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsində, “Zəfər günü”nə həsr olunmuş “Xarı bülbül” Respublika Uşaq Rəqs festifalında, Şuşa şəhərində keçirilən 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Könlüm keçir Qarabağdan” adlı Respublika müsabiqəsində, Beynəlxalq

İnsan Hüquqları gününə həsr olunmuş “Mən və hüquqlarım” uşaq rəsm müsabiqələri də müxtəlif məktəblərdən olan şagirdlər 1, 2, 3-cü və həvəsləndirici yerlərə layiq görülmüşlər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 8 noyabr-“Zəfər Günü” münasibəti ilə “Zəfərə Aparan İdeya” layihə üzrə 2-ci olan Qasəmova Səbinə, “Zəfər Dastanı” Respublika şeir və mahnı müsabiqəsində 4 şagird-Qarayeva Banuçiçək, Cəfərov Emin, Tağıyeva Nərmin, Məmmədova Nuray, “Sahibkar məktəbli” 2 Respublika müsabiqəsində Abdullayev Vasif, Sadıqov Sadiq, Gənclərin Respublika Bədii Yaradıcılıq Evi “Həmrəyliyimiz birliyimizdir”adlı respublika rəsm və əl işləri müsabiqəsində Səfərova Leyla, Zeynalova Gülnarə, Azərbaycan Respublikası Fövqəladə Hallar, Elm və Təhsil Nazirliklərin birgə keçirdiyi “Fövqəladə hallar uşaqların gözü ilə” uşaq yardıcılıq müsabiqəsində Səfərova Leyla, Rzayev Ayxan, Əliyeva Nəzrin, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Sən elə bir zirvəsən” onlayn Respublika şeir müsabiqəsində İbrahimli Əsmər və Qasımov Adil, “Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik” müsabiqəsində 6 şagird - Rzayev Rza, Həşimov Elcan, Abdullayev Cavid, Rzayev Ayxan, Cəfərov Azər, Muxtarov İsax, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Mən fəxr edirəm ki, Azərbaycanlıyam” adlı onlayn videoçarx və foto müsabiqəsində Abdullayev Cavid, Ələkbərova Aytəkin müxtəlif yerlərə layiq görülmüşlər.

Mənim uzun illər coğrafiya müəllimi kimi fəaliyyət göstərdiyim Şəmkir rayonu Düyərli kənd 1 saylı orta məktəb rayonun məktəbləri içərisində seçilən məktəblərdən olmuşdur. İllərlə Ulu Öndərə həsr olunmuş inşa müsabiqələrində, müxtəlif fənn olimpiadalarında fərqlənmişlər. Kəpəz tv-nin 6 rayon məktəbləri içərisində məktəbimizin komandası 1-ci yerə çıxmış, qiymətli hədiyyələr və kubokla təltif olunmuşlar. Məktəbimizin şagirdləri müxtəlif idman

yarışlarında da fərqlənmişlər. Yarışmaların tərkibində hazırda ali məktəbi bitirən, sinif rəhbəri olduğum 11t sinfindən 3 nəfər yarışmanın qalibi olmuşdur, 20 nəfər şagirdin 12 respublikanın müxtəlif universitetlərinin məzunları BDU-nun hüquq, coğrafiya, psixologiya, İqtisad universitetinin 2-ci qrup ixtisasları üzrə 2 şagirdim, Bakı Pedaqoji, Slavyan universitetlərindən, Gəncə şəhərində yerləşən Pedaqoji, Texnologiya və Aqrar universitet-lərdən məzun oldular. Onlardan bir neçəsi magistr pilləsi üzrə təhsillərini davam etdirəcəklər. Hazırda respublikamızın müxtəlif müxtəlif orta məktəblərində fəaliyyət göstərən davamçılarım var. Ulu Öndər deyirdi: ”Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir, Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”. Ümummili lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar məktəbimizdə (Elmi-Praktik konfrans) bir tədbir hazır-ladıq. Bu tədbirin digərlərindən fərqi, Heydər Əliyevin müxtəlif vaxtlarda və müxtəlif tədbirlərdəki çıxışlarından; Ordu quruculuğu, Təhsil siyasəti, Universitetlərimiz haqqında, Şəhərlərimiz, Uşaq və gənclər haqqında, Ziyalılarımız, Ekologiya və təbiət haqqında fikirlərini olduğu kimi şagirdlərimiz səsləndirdilər. Mənim məqsə-dim gənc nəslə Ulu Öndəri daha yaxından tanıtmaq, Heydər Əliyevin xidmətlərinin Azərbaycanımız üçün ölçüyə gəlməz oldu-ğunu dərk etdirmək idi. Ulu Öndərimizin rayonumuza olan sevgisini xatırlatmaq üçün məktəbimizin coğrafiya sevər şagirdləri ilə “Dəyirmi masa” ətrafına toplaşdıq. Məktəbin direktoru Şəhriyar Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu ilin “Heydər Əliyev ili” olduğunu qeyd etdi və şagirdlərimizin iştirakı ilə Fləşmob hazırlanacağı məlumat olaraq iştirakçılara çatdırdı. Bu tədbirdə Ulu Öndərin birinci və ikinci hakimiyyəti dövrdə Şəmkir görüşlərini, rayonun ziyalıları, zəhmətkeşləri ilə səmimi söhbətləri xatırladı. Heydər Əliyevin bir neçə əhəmiyyətli

obyektlərin Şəmkir və Yenikənd su elektrik stansiyalarının, Quşçuluq fabrikinin, Şərab zavodunun və s. təməlini qoyması zamanı çıxışlarında rayonun gələcək inkişafında bu müəssisələrin əhəmiyyətini rayon ictimayətinə çatdirdı. Bu tədbirdə də məqsədimiz Ulu Öndərin rayonlara da xüsusi münasibət bəsləyirdi. İnanıram ki, bu tədbirlər şagirdlərin gələcək inkişafı üçün bir mayaq olacaqdır. Çünki Heydər Əliyev elə bir zirvədir ki, O heç vaxt unudulmayacaq, nə qədər bu millət var, daim qəlblərdə yaşayacaq, minnətdarlıqla xatırlanacaq!